# SÖZƏ VERİLƏN KÖNÜL

**Masamın üstündə nəşrini gözləyən bir kitabın əlyazmaları var. Doğrusunu deyim ki, o imzanı əvvəldən tanımamışam. Sadəcə olaraq, mənim üçün çox dəyərli olan araşdırmaçı, yazıçı-publisist Vasif Quliyevin təqdim etdiyi əlyazmalarla tanış olanda hiss etdim ki, bu misraların müəllifi könlünü sözə verib, iç dünyasını şeirlə bölüşüb, misralara çevirib. Özü də bunu bacardığı şəkildə, səmimi bir istəklə həyata keçirir. Yazır ki:**

***Payızda qızılı bir don geyinər,***
***Hüsnünə yaraşar yağış da, qar da.***
***Lakin daha gözəl, qəşəng görünər,***
***Mənim doğma yurdum Şuşa baharda.***

***Övlada qayğısı, istəyi birdi,***
***Dağların başında sanki sehrdi.***
***Qəlbləri coşduran şirin şeirdi,***
***Mənim doğma yurdum Şuşa baharda.***

***Ətirli çiçəklər yolumu kəsdi,***
***Xəstəyə bir damla suyu da bəsdi.***
***Ürəklərə axan həzin bir səsdi,***
***Mənim doğma yurdum Şuşa baharda.***

Buradaca xatırladım ki, hələ Şuşalı günlərdə qələmə alınmış bu şeir müəllifin həzin pıçıltısına bənzəyir. Sanki o, üzünü göylərə tutub Şuşanın mənzərəsini, özəllikərini dilə gətirir.

Və yaxud:

***Sinəm dağlı, yolum bağlı,***
***Özüm dərdli Qarabağlı.***
***Bir an ayrı qala bilməz,***
***Şuşam, qəlbim sənə bağlı.***

Fikir verdinizsə, bu şeir artıq Şuşasız günlərin acısını özünə hopdurubdu. Əlyazmalarını vərəqlədikcə diqqətimi bu misralar da çəkir:

***Çəmənlər güllü xəli,***
***İşləyib rəssam əli.***
***Gəzirəm dəli-dəli,***
***Şuşamı axtarıram.***

Ümumiyyətlə, bu əlyazmaların böyük əksəriyyəti yurd nisgili və vətən həsrətinin cizgilərini özündə ifadə edir. Hər bir şeirin damarında mütləq Şuşa, Qarabağ çaları boy göstərir. Məsələn:

***Şən lalələr boya çəkər dodağına, düzünə,***
***Bənövşələr sürmə sürtər qaşına, həm gözünə.***
***Yaz dumanı şeh çiləyər səhər-səhər düzünə,***
***Qurban olum dolamana, cığırına, rizinə.***



***Gözəl Şuşam, nə gözəlsən, qaytar məni özünə.***

Və yaxud başqa bir şeirdə:

***Bu gün vaxtdı, sabahsa gec,***
***Ayılmasam, sonluqdu heç.***
***Zaman yetib, canımdan keç,***
***Yol gözləyir Ana Vətən.***

Bəli, mən Tamella Bəhmənqızının əlyazmaları ilə tanış olarkən bir daha açıq-aşkar gördüklərimə də inandım ki, bir Qarabağsız, Şuşasız sadəcə olara mövcuduq, yaşamırıq. Bu möcduluq biz həmin torpaqlara qayıdanda artıq yaşamağa çevriləcəkdi. Ona görə də indi əlimizi Tanrıya açıb deyirik ki:

***Könlümün kamanı, qəlbimin sazı,***
***Vətən notu üstə etdi pərvazı.***
***Ümidim ürəyə gətirdi yazı,***
***Qoyma həsrətimi həddini aşa,***
***Tanrım, yardım elə, sevinsin Şuşa.***

Buradakı sonuncu misra mənim üçün xüsusilə yaddaqalan oldu. Bu, müəllifin ən səsmimi pıçıltılarından biridi. Söhbət burada təkcə bimiz yox, həm də Şuşanın sevinməyindən gedir.

Bəli, əl içi boyda bir kitabın içərisindəki səmimi pıçıltılar, səmimi ifadələr həqiqətən də maraq doğurur, diqqət çəkir. Düşünürəm ki, Tamilla Bəhmənqızının şəhidlərimizin ruhuna Azərbaycan əsgərinə, yurd nisgilimizə, bütövlükdə yaxından tanıdığı doğmalarına, dostlarına ünvanladığı misralar həqiqətən onun yaşantılarıdı. Və o da bu yaşantıları şeirləşdirib, bütövləşdirib və bütünləşdiribdi. Bu yolda mən Tamilla Bəhmənqızına uğurlar diləyir və demək istəyirəm ki, onun sözə verdiyi könülü inşallah, Şuşada sevinər!

**Əbülfət MƏDƏTOĞLU**

Ədalət.- 2020.- 15 sentyabr. S. 6.